# "Azərbaycan üçün öyrət" təhsil proqramının təqdimat mərasimi











Aprelin 19-da "Azərbaycan üçün öyrət" yeni təhsil proqramının təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimində təhsil naziri Mikayıl Cabbarov, "Kapital Bank"ın İdarə Heyətinin sədri Rövşən Allahverdiyev, millət vəkilləri, ölkənin təhsil ictimaiyyətinin nümayəndələri, tanınmış ziyalılar, şagirdlər və KİV təmsilçiləri iştirak ediblər.

İştirakçıların özlərini məktəbdə hiss etmələri üçün tədbirin keçirildiyi məkan proqramın mahiyyətinə uyğun olaraq, "sinif otağı" konseptində hazırlanıb.

Tədbirə Azərbaycan Respublikası Dövlət himninin səsləndirilməsi ilə başlanılıb. İştirakçılara şagirdlərin daha çox öyrənmək istəyini əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra "Azərbaycan üçün öyrət" yeni təhsil proqramının təqdimatı keçirilib, proqramın məqsədi, vəzifələri və proqramda iştirak imkanlarını əks etdirən videoçarx izlənilib.

Proqramın təqdimatı zamanı bildirilib ki, "Azərbaycan üçün öyrət" təhsil proqramı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq, ümumi təhsil məktəblərində keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasını təmin edən təhsil proqramıdır. Proqramın məqsədi korporativ sosial məsuliyyət çərçivəsində təhsilin keyfiyyətinin yüksəldilməsində ictimaiyyətin iştirakına imkan yaradılması, əlavə təhsil imkanları ilə şagirdlərin bilik və dünyagörüşünün artırılmasıdır. Proqram həmçinin, şagirdlərin dərsə olan maraq və həvəsini artırmağa xidmət edir.

Təhsil naziri Mikayıl Cabbarov tədbir iştirakçılarını salamlayıb və ''Azərbaycan üçün öyrət'' təhsil proqramının əhəmiyyəti barədə fikirlərini bildirib. Nazir qeyd edib ki, proqram pilot olaraq Bakı, Gəncə, Lənkəran, Şəki və Quba şəhərlərində yerləşən ümumi təhsil məktəblərinin şagirdlərini əhatə edəcək. Proqram vasitəsilə yeni tədris yanaşmalarını tətbiq etmək, beynəlxalq və yerli səviyyədə təcrübə mübadiləsi aparmaq, şagirdlərin bilik səviyyəsinin artırılması və məktəbin uğur göstəricilərinin yüksəldilməsi imkanı qazanmaq mümkün olacaq.

Təhsil naziri AMEA ilə əməkdaşlıq çərçivəsində "Elmdən təhsilə" təşəbbüsü üzrə alimlərin ümumi təhsil müəssisələrində dərs tədris etməsindən də danışıb.

Tədbirdə Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev, "Kapital Bank"ın İdarə Heyətinin sədri Rövşən Allahverdiyev gələcək nəslin inkişafına və keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasına yönələn bu proqramın uğurla həyata keçiriləcəyinə ümidvar olduqlarını bildiriblər.

Sonda Təhsil Nazirliyi və "Kapital Bank" arasında proqramla bağlı əməkdaşlıq haqqında memorandum imzalanıb.

**www.edu.gov.az**